

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 93 (23.505)

17 iyun 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


**Rəsmi xronika**

İyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

İştirakçıları salamlayan Prezident İlham Əliyev videokonfransın təşkil edilməsini yüksək qiymətləndirərək vurğulayıb ki, artıq 15 ildən çoxdur, "Microsoft" Azərbaycanda fəaliyyətə başlayıb. O vaxtdan bu günədək davam edən tərəfdaşlığın böyük potensialı və gələcəyi var. Biz qarşıdakı uzun illərdə də tərəfdaş olacağıq.

Konfrans iştirakçıları Prezident İlham Əliyevə konfrans üçün vaxt ayırdığına və dəstəyinə görə minnətdarlıqlarını bildiriblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 16 iyun tarixli sərəncamları ilə Azərbaycanda səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının səhiyyə işçiləri də vardır.

**Həsənov Nəcəf İsa oğlu**

"Tərəqqi" medalı ilə,

**Səfərov Ələddin İbrahim oğlu**

"Əməkdar həkim",

**Orucova Həvva Abbasqulu qızı**

"Əməkdar tibb işçisi" fəxri adları ilə təltif edilmişlər.

## Nazirlər Kabinetində iyun ayının ilk 15 günü ərzində müəyyən qərarlar qəbul edilmiş və bir sıra tədbirlər həyata keçirilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 iyun tarixli 95 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olma Qaydası" təsdiq edilmişdir. Adıçəkilən qaydaya əsasən pedaqoji təhsilə malik olmayan ali təhsilli mütəxəssislər baza təhsilindən asılı olaraq pedaqogika, psixologiya və təlim strategiyaları ilə bağlı Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən təşkil olunan müvafiq ödənişsiz təlim kurslarına cəlb olunurlar. Təlim kurslarının keçirilməsi vaxtı, yeri, davametmə müddəti və digər şərtləri nazirlik tərəfindən müəyyən edilir və bu barədə nazirliyin rəsmi internet səhifəsində məlumat yerləşdirilir. Təlim kurslarını başa vurmuş şəxslərə forması nazirlik tərəfindən müəyyən edilən sertifikat verilir. Həmin tarixdə "Naxçıvan Muxtar Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə Qaydaları" təsdiq edilmişdir. Bu qaydalar Naxçıvan Muxtar Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandığı zaman yoluxma riski olan və ya yoluxduğu güman edilən şəxslərin və yoluxucu xəstəlik faktı təsdiq edilmiş şəxslərlə təmasda olan şəxslərin karantin nəzarətinə götürülməsini müəyyən edir.

Nazirlər Kabinetinin 96 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları" təsdiq edilmişdir. Həmin Qərara uyğun olaraq tabeliyindən, təşkilati-hüquqi formasından asılı olmayaraq, Naxçıvan Muxtar Respublikasının bütün təhsil müəssisələrində psixoloji xidmət təhsilalanların əqli və fiziki inkişafının, habelə onların sosial müdafiəsinin təmin olunması sahəsində təhsil qanunvericiliyinə, digər normativ-hüquqi aktlara və bu qaydalara uyğun olaraq təşkil edilir, uşaq yeniyetmə və gənclərin psixologiyası üzrə aparılan elmi tədqiqatların nəticələrinə və nailiyyətlərinə əsaslanır, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, uşaqların inkişafı sahəsində müasir nəzəriyyələri istifadə və tətbiq etməklə həyata keçirilir.

Bundan başqa, 3 iyun tarixində "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı"nın təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir. Qərarda qanunvericiliyə əsasən ixrac nəzarətinə düşən malların ixracı, idxalı, və tranziti üçün, eləcə də mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən əşyaların dövriyyəsinə daxil bu və bu kimi icazələrin siyahısı yer alıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli 61 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nda dəyişikliklər edilmişdir. Dəyişikliyə əsasən "Pedaqoji təhsilə malik olmayan, lakin qanunvericiliklə müəyyən edilmiş ümumtəhsil fənlərinin tədrisi üzrə ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ verilmiş ali təhsilli mütəxəssislərin müəllim vəzifəsinə qəbulu" da bu qaydalara əsasən həyata keçirilməsi ilə bağlı 1.2-1-ci bəndinə əlavə edilmişdir.

"Naxçıvan Muxtar Respublikasında işsiz şəxslərin özünüməşğulluğunun təşkili Qaydası"nın təsdiq edilməsi haqqında 100 nömrəli Qərar qəbul edilmişdir. Qərara uyğun olaraq özünüməşğulluğun təşkili zamanı ünvanlı dövlət sosial yardımı alan şəxslərə, əlilliyi olan şəxslərə, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalmış şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslərə üstünlük verilir. Eləcə də mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub digər məşğulluğu olmayan işaxtaran şəxslər 1 il müddətində özünüməşğulluğa cəlb olunmuş işsiz şəxslərin ümumi sayının 50 faizdən çox olmamaq şərtilə bu qaydaya uyğun olaraq özünüməşğulluğa cəlb edilirlər.

"Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 noyabr tarixli 73 nömrəli Qərarında da dəyişiklik edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

Bundan başqa, Naxçıvan Muxtar Respublikasında pandemiyanın mənfi təsirinin aradan qaldırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi işsiz kimi qeydiyyata alınan vətəndaşlara hər aya 190 manat vəsait olmaqla, 2 ay üçün 380 manat vəsaitin ödənilməsini həyata keçirmişdir. Bu günə qədər isə 8677 nəfərə 3 milyon 297 min manat birdəfəlik vəsait ödənilmişdir.

Pandemiyanın muxtar respublika iqtisadiyyatına mənfi təsirinin aradan qaldırılması məqsədilə muxtar respublikada vergiödəyicisi kimi qeydiyyatda olan sahibkarlıq subyektlərində çalışan işçilərin əməkhaqlarının ödənilməsi və fərdi sahibkarlara birdəfəlik maliyyə yardımının verilməsi üçün vəsait ayrılmışdır. Belə ki, 293 sahibkarlıq subyektində çalışan 3266 muzdlu işçinin əməkhaqqının ödənilməsi üçün, ümumilikdə, 1 milyon 257 min manat məbləğində vəsait köçürülmüş, 3913 fərdi sahibkarlara, ümumilikdə, 1 milyon 740 min manat məbləğində birdəfəlik maliyyə yardımı göstərilmişdir. Ümumilikdə, qeyd edilən sahələr üzrə muxtar respublikada fəaliyyət göstərən sahibkarlara bu günə qədər edilən maliyyə yardımının məbləği 2 milyon 997 min manat olmuşdur. Vəsaitlərin ayrılması davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda seminar

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə birlikdə nazirliyin aparatında qulluq keçən dövlət qulluqçuları üçün "Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Aparatında qulluq keçən dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda seminar keçirib***.



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar naziri Vüsal Sevdimalıyev seminarı açaraq bildirib ki, dövlət qulluqçusu işlədiyi dövlət orqanının təmsilçisi kimi yüksək peşəkarlıq keyfiyyətlərinə malik olmaqla yanaşı, etik davranış qaydalarının tələblərinə tam məsuliyyətlə əməl etməlidir.

Nazir diqqətə çatdırıb ki, dövlət qulluqçusu Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa, etik davranış qaydalarına riayət etməyə, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək deyib ki, dövlət qulluqçusu bütün şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. O, qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşı Türkan Gülməmmədli "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda çıxış edib.

"Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Aparatında qulluq keçən dövlət qulluqçularının etik davranış qaydaları" təsdiq edilib.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

*Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər may ayında da davam etdirilmişdir.*



Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 1 əcnəbi aşkarlanmış, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbir görülmüşdür.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 61 müraciət daxil olmuşdur. Daxil olan müraciətlər əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi və yenidən rəsmiləşdirilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, müvəqqəti olma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***



# İqtisadiyyat

*Xidmət sektorlarımız*

## *“Məişət Xidməti”* Məhdud Məsuliyyətli Cəmiyyəti əhaliyə keyfiyyətli xidmət göstərir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Sahibkarlar təbəqəsi güclənməlidir. Çünki bu, ölkəmizin gələcəyidir” fikirləri hazırda muxtar respublikamızda həyata keçirilən iqtisadi tədbirlərin ana xəttini təşkil edir. Özəl sektora dövlət dəstəyinin nəticəsidir ki, müxtəlif sahələr üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxışı asanlaşdırılıb, investisiya mühiti üçün münbit şərait yaranıb. Təkcə bu ilin ötən 5 ayı ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara 49 layihənin maliyyələşdirilməsinə, ümumilikdə, 6 milyon 879 min manatdan çox kredit vəsaiti verilib. Görülən işlərin nəticəsidir ki, qeyd olunan dövrdə muxtar respublikada 71 istehsal və xidmət sahəsi istifadəyə verilib.***

Təbii ki, muxtar respublikada istehsal müəssisələri ilə yanaşı, xidmət sahələri də əhalinin artan tələbatının ödənilməsində mühüm rol oynayır. Təsadüfi deyil ki, son illərdə yeni xidmət sahələri ilə bərabər, ənənəvi sahələrin də fəaliyyətində dövrün çağırışlarına uyğun şəraitin təmin edilməsi, müştərilərə yüksək xidmət göstərilməsi ön planda dayanır. Texnoloji yeniliklərin tətbiqi ildən-ilə genişləndiyindən müvafiq xidmət sahələri də müştəri məmnuniyyətini təmin etmək üçün bu prosesdən kənarda qalmır. Belə müəssisələrdən biri də artıq 2010-cu ildən Naxçıvan şəhərində fəaliyyətə başlamış “Məişət Xidməti” Məhdud Məsuliyyətli Cəmiyyətidir.



Bu cəmiyyətin fəaliyyəti əhaliyə təmizlik xidməti üzərində fokuslanıb. Xalça, yataq və geyim dəstləri, divan və oturacaqlar, həmçinin avtomobil oturacaqlarının müasir təmizlik sistemləri və vasitələri ilə təmizlənməsi buradakı fəaliyyətin əsasını təşkil edir. Elə bu günlərdə adıçəkilən ünvanda olduq və müəssisənin fəaliyyəti ilə yaxından maraqlandıq.

Cəmiyyətin rəhbəri Zamin Abbasov bizimlə söhbətində ilk olaraq xidmətin yaradılması zərurəti haqqında danışdı. Bildirdi ki, 10 il bundan əvvəl işə başlayanda düşündük ki, əhalinin daha çox cəmləşdiyi Naxçıvan şəhərində belə bir sahənin yaradılmasına tələbat var. Bunu ilk olaraq özümüz hiss edirdik və bununla bağlı müəyyən problemlər yaşayırdıq. Onu da deyək ki, o dövrdə bu işi kənd yerlərində insanlar daha çox özləri etsələr də, şəhər yerində böyük çətinliklər var idi. Xalça, palaz və bunun kimi digər vasitələri fərdi olaraq yumaq həm xeyli su sərfiyyatına başa gəlir, həm də onları qurutmaq əlavə çətinliklər yaradırdı. Ona görə də qərara aldıq ki, sektordakı bu boşluğu özümüz dolduraq. Dövlət tərəfindən də bizə böyük dəstək oldu, xidmət üçün bina ayrıldı. Hazırda 1300 kvadratmetrlik sahədə fəaliyyət göstəririk. 2016-cı ildə müəssisəyə müəyyən avadanlıqlar alsaq da, bu il daha müasir və işi daha çevik görə biləcək avadanlıqlar alıb gətirərək quraşdırdıq. İtaliya və Türkiyə istehsalı olan bu təmizlik avadanlıqları seqmentinə görə hazırda ən müasirləri sayılır.

Təmizlik prosesi ilə maraqlanırıq. Həmsöhbətimiz bildirir ki, hazırda xidmət müəssisəsində quru təmizləmə, camaşırxana, ütüləmə, boyama, dəri və parçadan olan geyimlərin təmizlənməsi həyata keçirilir. Quru təmizləmə, əsasən, müxtəlif geyim növləri üçün əlverişlidir. Çünki bu üsulun tətbiqi ilə geyim əzilmir, həm də istifadə olunan müvafiq təmizləmə vasitələri insan sağlamlığı üçün zərərsizdir. Digər məişət əşyalarının (xalça, palaz, yataq dəstləri, divan-kreslo örtükləri və sair) təmizliyinə gəldikdə isə proses bu ardıcıllıqla aparılır. Əşyalar gətirildiyi zaman ilk olaraq kodlaşdırma prosesi həyata keçirilir. Belə ki, müştəri haqqında məlumatları su keçirməyən kiçik parçalarda əks olunaraq əşyanın üzərinə tikilir. Sonra həmin əşyalar buradakı təmizlik (çırpma) avadanlığının köməyi ilə tozdan təmizlənir və yuyulma prosesini həyata keçirən növbəti avadanlığa göndərilir. Müasir dizayna malik bu avadanlıq müxtəlifölçülü fırçalarla təmizləyici vasitəni avtomatik olaraq əşyanın üzərində paylamaqla onu yuyur, xalçalarda xovları düzünə və əks-istiqamətdə darayır və sonda təmiz su ilə durulayır. Bütün bu proseslər avtomatik olaraq, əl dəymədən edilir. Növbəti mərhələdə isə yuyulan əşyalar sıxılma prosesinin həyata keçirildiyi digər avadanlığa verilir. Bu avadanlıq yüksək fırlanma gücünə malik kompressor vasitəsilə suyu sıxır. Hətta sıxılma prosesi o həddə çatır ki, nəmlik 4-5 faiz qalır. Sonra isə yuyulmuş əşyanın digər bir avadanlığın üzərinə sərilərək işıq şüası altında təmizliyinə nəzarət olunur və onların tam quruması üçün ayrılmış sahəyə göndərilir. Nəhayət, qurudulmuş əşyalar polietilen torbaya salınaraq ünvanına çatdırılır.



Zamin Abbasovun sözlərinə görə, hazırda burada avtomobillərin dəri və parça oturacaqlarının, plastik hissələrinin quru təmizlənməsi də həyata keçirilir ki, bu da avtomobillərin həmin hissələrinin qısa zamanda, həm də yüksək keyfiyyətlə təmizlənməsinə imkan verir.

Müəssisə rəhbəri bildirir ki, müştəri məmnuniyyəti hər zaman onlar üçün əsas hədəf olub. Xidmət üçün müştərinin, sadəcə, zəng etməsi kifayətdir. Mənzillərdən əşyaların götürülməsi və təmizləndikdən sonra çatdırılması isə pulsuzdur. Buna görədir ki, sosial şəbəkələr vasitəsilə də bu ünvana müraciət edənlərin sayı hər keçən gün artır.

*Beləliklə, “Məişət Xidməti” Məhdud Məsuliyyətli Cəmiyyəti əhaliyə keyfiyyətli xidmət göstərməklə sakinlərin rahatlığına və vaxt itkisinin aradan qaldırılmasına öz töhfəsini verir.*

✍ **Səbuhi HƏSƏNOV**

---

*Ailə təsərrüfatlarımız*

## Qayğı və zəhmət birləşəndə...

***Tarixən aqrar diyar kimi tanınan muxtar respublikamızda torpağa mehr-ülfət salanlar bu qiymətli sərvətin qədrini bilsələr də, sovet dönəmində həmin insanlar torpağın səxavətindən lazımınca bəhrələnmək imkanlarından məhrum ediliblər.***

Qədim diyarımızda ötən əsrin 90-cı illərinin sonlarında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatlarına başlanılması, kənd adamlarının öz torpaqlarına sahiblənməsi bu qiymətli sərvətdən daha səmərəli istifadəyə, məhsul bolluğu yaratmağa, bununla da insanların gün-güzəranlarını daha yaxşı qurmasına, nəticə etibarilə, diyarımızın iqtisadi gücünün, daxili bazarda yerli istehsalın çəkisinin artmasına stimul oldu. Sonrakı dövrlərdə aqrar sahənin inkişaf etdirilməsi məqsədilə bir sıra normativ-hüquqi aktların qəbul edilməsi, müxtəlif istiqamətlərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatının elmi əsaslarla inkişafına imkan verdi, güclü sahibkarlar dəstəsi yetişdi. Yeri gəlmişkən sahibkarlıq fəaliyyətinə yaşıl işıq yandırılması da bu sahədəki çətinlikləri aradan qaldırdı.

Belə zəhmət adamları muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda da ad-san sahibidirlər. Son illərdə onlar ailə təsərrüfatları yaratmaqla məhsuldar torpaq sahələrindən daha səmərəli istifadə edir, məhsul bolluğuna öz töhfələrini verirlər. Belə təsərrüfat başçılarından biri də rayonun Muğancıq-Mehrab kəndində yaşayan Feyzulla Abdullayevdir. Bu günlərdə həmin yaşayış məntəqəsində istifadəyə verilən yeni obyektlərdə olarkən fürsətdən istifadə edib onunla da görüşdük.

Uzun illərdir ki, təsərrüfatla məşğul olan bu halal zəhmət adamı doğulub böyüdüyü yurd yerinə qəlbən bağlı insanlardan biridir. Həmsöhbətim deyir ki, yurduma olan bağlılığın arxasında, ilk növbədə, insanlara göstərilən xüsusi diqqət və hərtərəfli dövlət qayğısı dayanır. Onun sözlərinə görə, əvvəllər texnikanın, təsərrüfat suyunun azlığı, məhsuldar toxum sortlarının tapılmaması kənd adamlarının əlini işdən soyutmuşdu. Torpaqlar onlara verilsə də, imkansızlıq ucbatından çox hissəsi əkilmirdi. Muxtar respublikaya yeni texnikaların gətirilməsi, genişhəcmli meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsi, torpaq mülkiyyətçilərinə kreditlərin, güzəştli yardımların verilməsi, kəndlinin məhsuldar toxum sortları ilə təchiz olunması insanların torpağa münasibətini kökündən dəyişdirdi. Hazırda kənddə bir qarış torpaq belə, boş deyil. Bu gün kəndlinin əkin sahələrini suvarmasında heç bir problem yoxdur. Həmçinin təsərrüfatçılar texnika ilə təminatdan da xeyli razıdırlar. Onlar üçün “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Şərur bazasının fəaliyyətindən istifadə etmək imkanları yaradılıb. Bütün bunlar isə müxtəlif təsərrüfat sahələrində uğurlu nəticələr qazanılmasına yol açıb. Bu gün hər bir qarış sahənin qədri bilinən yurd yerimizdə hamı torpaqdan ikiəlli yapışıb. Yaxşı dərk edirik ki, ən qiymətli sərvət olan torpaq daimi ruzi-bərəkət mənbəyidir, iş yeridir, gün-güzəranın yüksəldilməsində ən yaxın dostdur. Ona görə də bu sərvətin qədrini bilirik. Yaradılan şəraitin nəticəsidir ki, kəndlinin təsərrüfat işlərinə marağı ildən-ilə artır, bu sahəyə üz tutanların sayı günbəgün daha da çoxalır.



Hazırda Muğancıq-Mehrab kəndi ərazisində böyük torpaq sahəsi olan Feyzulla Abdullayev deyir ki, sahənin 2 hektarında buğda və arpa əkib-becərirəm, tədarük olunan məhsulu dəyirmana verirəm. Həmçinin maldarlıq və arıçılıqla da məşğul oluruq. Mövsümdə arı ailələrini rayonun Havuş, Günnüt, Hadıqayıb yaylaqlarına çıxarıram.

Müsahibim həm də təcrübəli arıçıdır. Deyir ki, təmiz balın tərkibində 14 mikroelement olmalıdır. Onun arı ailələrindən götürdüyü bal Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən Almaniyaya göndərilərək orada laboratoriya analizindən keçirilib, həmin məhsulda 14 mikroelementin hamısının olduğu müəyyən edilib.

300 kvadratmetr sahədə istixanası olan ailə təsərrüfatı başçısı 1 hektar sahədə tərəvəz də yetişdirir. Deyir ki, şükür Allaha, çəkdiyim zəhmətin bu gün könülaçan bəhrəsini görürəm. Bu isə məni qəlbən sevindirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikanın hər yerində meyvə-tərəvəz məhsullarına olan tələbatın daha dolğun ödənilməsini təmin edib. Proqrama əsasən bölgələrdə yeni meyvə bağlarının salınması, unudulmaqda olan sortların bərpa edilməsi bəhs olunan dövrdə geniş vüsət alıb. İqtisadi səmərəlilik baxımından mühüm əhəmiyyətə malik olan meyvə-tərəvəzçiliyin inkişafı üçün muxtar respublikamızda əlverişli şərait, ekoloji mühit mövcuddur. Şərur rayonunda da həmin imkanlardan səmərəli istifadə olunmasına, məhsuldar və yerli meyvə sortlarının bərpa edilməsinə, xüsusilə üstünlük verilir. Rayonda bütün torpaq mülkiyyətçiləri Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsində fəallıq göstərir, yeni bağ sahələrinin artırılması üçün səylərini əsirgəmirlər.

Bu gün nəinki Feyzulla Abdullayev, hər bir kəndli muxtar respublikamızda gedən prosesləri ürəkdən dəstəkləyir. İnsan amilinə qayğı onları muxtar diyarımızın daha da çiçəklənməsinə töhfə verməyə ruhlandırır. Qayğı olan yerdə zəhmətə qatlaşıb yaxşı yaşamaq, firavan həyat sürmək bu gün onların keçmiş arzularını xoş reallığa çevirib.

✍ **Gülcamal TAHİROVA**

---

## Üzümçülük təsərrüfatında yeni istehsal sahəsi yaradılıb



***Naxçıvanda 2020-ci ilin “İxrac ili” elan olunması istehsal olunan məhsulların ixrac imkanlarını daha da artırıb, yeni emal və istehsal sahələrinin yaradılmasına stimul verib. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, cari ilin yanvar-may ayları ərzində Babək rayonunda dövlət maliyyə dəstəyi hesabına 4 olmaqla, 12, özəl investisiya hesabına 8 olmaqla, ümumilikdə, 16 layihə əsasında sahibkarlıq subyektinin yaradılması başa çatdırılıb, 6 yeni layihə əsasında təsərrüfat, yaxud istehsal sahəsinin yaradılması davam etdirilib.***



Bu ildən başlayaraq muxtar respublikanın ən böyük üzümçülük təsərrüfatı olan “Sumqala”da plastik səbətlərin istehsalına başlanılıb. Xəbər verdiyimiz kimi, ötən il təsərrüfatın 80 hektarlıq sahəsindən min tondan çox məhsul götürülüb. Yığılan məhsullar yerli tələbatı ödəməklə yanaşı, Bakı şəhərinə, həmçinin Rusiyanın və Ukraynanın bazarlarına ixrac olunub.Təsərrüfatda tutumu 2500 ton olan soyuducu anbarın tikintisi başa çatdırılıb, yığılan məhsulun bazara çıxarılması üçün plastik səbətlərin istehsalı sahəsi yaradılıb. Soyuducu anbar istehsal olunan məhsulun uzun müddət keyfiyyətli saxlanılmasına və istənilən mövsümdə bazara çıxarılmasına imkan verirsə, plastik səbətlərin istehsalı sahəsi isə idxaldan asılılığı aradan qaldırır. Artıq gündəlik 5-10 kiloqram tutumlu 7500, 12-15 kiloqram tutumlu 6000, 30 kiloqram tutumlu 4500 səbət istehsal olunur. Yeni istehsal sahəsində 10 nəfər işçi cəlb olunub. Qeyd edək ki, səbətlərin muxtar respublikadakı digər təsərrüfatlara satışı da həyata keçirilir.

**Muxtar RZAZADƏ**

*17 iyun Tibb İşçilərinin Peşə Bayramı Günüdür*

# Əhalinin sağlamlığı etibarlı qorunur



***Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamı ilə hər il iyunun 17-si ölkəmizdə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.***

Bu günün qeyd olunması ölkəmizdə səhiyyə sahəsinə, o cümlədən tibb işçilərinə göstərilən qayğının parlaq təzahürüdür. Milli dövlət quruculuğu strategiyasında səhiyyənin də inkişafına həssaslıqla yanaşan, bu sahəyə diqqət və qayğısını heç zaman əsirgəməyən ümummilli lider Heydər Əliyev tibb işçilərinə müraciətlə deyirdi: ***“...Siz bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə – insanların sağlamlığının qorunması işinə həsr etmisiniz. Əhalinin sağlamlığının mühafizəsi və tibbi xidmətin yaxşılaşdırılması istiqamətində irəliyə doğru atdığınız addımlar bizi sevindirir. Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir”.***

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərində ölkəmizin bütün regionlarında səhiyyə ocaqları tikilərək istifadəyə verilmiş, əhalinin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilmişdir. Müstəqillik illərində də səhiyyənin inkişafına hesablanmış məqsədyönlü və ardıcıl tədbirlər görülmüş, bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, həkimlərin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, ixtisaslı və peşəkar həkim kadrlarının hazırlanması diqqət mərkəzində saxlanılmışdır.

Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində uğurla davam etdirir. Son illər tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Qəbul olunmuş dövlət proqramlarının icrası göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin artmasına, dərmanla təchizatın əhəmiyyətli dərəcədə yaxşılaşmasına şərait yaradır.

İnsan sağlamlığı bütün dövrlər üçün cəmiyyətin ən qiymətli sərvəti hesab olunur. Məhz buna görə də insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi məqsədilə bu gün Naxçıvan Muxtar Respublikasında da mühüm işlər görülür. Burada səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması da yalnız bir məqsədə – əhalinin sağlamlığının qorunmasına xidmət edir. Bu səbəbdən də dərman və tibbi ləvazimatlarla təchizat yaxşılaşdırılmış, ana və uşaqların, ahılların, bütövlükdə əhalinin hər bir təbəqəsinin sağlamlığının qorunması əsas məsələyə çevrilmişdir.

Səhiyyə sistemi qarşısında qoyulan vəzifələrdən biri də budur ki, insanlar tibbi yardımı yerlərdə ala bilsinlər, hər bir müayinə və tibbi müdaxilə üçün Naxçıvan şəhərinə, başqa yerlərə getmək məcburiyyətində qalmasınlar. Artıq belə şərait yaradılmışdır. Rayon mərkəzi və kənd sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri müasir tələblər səviyyəsində qurulmuş, tibbi avadanlıqlarla təchiz edilmiş və həmin avadanlıqlarla işləyə biləcək kadrlar yetişmişdir. Əminliklə demək olar ki, artıq vətəndaşların hər kənddə, rayon mərkəzlərində keyfiyyətli tibbi yardım alması mümkündür.

Həyata keçirilən səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri də muxtar respublikada icbari tibbi sığortanın tətbiqidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 mart tarixli “Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi, hər bir vətəndaş üçün əlçatan olması baxımından mühüm əhəmiyyət daşıyır. Bu ildən icbari tibbi sığorta sisteminin tətbiqinə uyğun olaraq publik hüquqi şəxs statusu alan müəssisələrdə işçilərin əməkhaqqı 50 faiz artırılmışdır. Həmin müəssisələrdə icbari tibbi sığortanın və tibbi xidmətin fəaliyyətini təmin etmək üçün cari təmir və yenidənqurma işləri aparılmış, ehtiyac olan avadanlıqlarla təmin edilmiş və sığorta üçün vacib olan nümunəvi tibbi informasiya sistemi – kompüter proqram təminatı yaradılmışdır. Rayonlarda həyata keçirilməsi mümkün olan müayinə və müalicələr vətəndaşlara tibbi sığorta hesabına aparılmış, tətbiq olunması mümkün olmayan xidmətlərin siyahısı dəqiqləşdirilmiş, bu siyahıya uyğun xidmətlər göstərəcək tibb müəssisələri müəyyənləşdirilmişdir. Ehtiyacı olan xəstələrin müayinə və müalicələri göndərişlə təmin olunaraq həmin müəssisələrdə tibbi sığorta hesabına həyata keçirilir.

Muxtar respublikada uşaqların sağlam böyüməsi üçün tibbi xidmətlərin keyfiyyətinin artırılması və müasir tələblərə uyğunlaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması bu sahədə görülən işlərin davamıdır. Ötən il publik hüquqi şəxs statuslu Şərur, bu il isə Ordubad Rayon Uşaq xəstəxanalarının yaradılması gələcəyimiz olan uşaqların sağlamlığının qorunması istiqamətində görülən mühüm tədbirlərdəndir.

Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar kəndlərdə və obalarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları hazırda fəaliyyətlərini davam etdirir, yerlərdə əhalinin müayinə-müalicə işi ilə məşğul olurlar. Təhsil işçiləri arasında süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün profilaktik kütləvi müayinələr, ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə kiçikyaşlı uşaqlar arasında tuberkulin və diaskin test sınağı, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların, tələbələrin kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji və digər müayinələri davam etdirilir.





“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq səhiyyə sistemində elektron xidmətlərin göstərilməsinə başlanmış, qısa müddətdə nümunəvi tibbi informasiya sistemi qurulmuşdur. Gənc ailələrdə səhiyyə maarifi işi, hamilə qadınların və uşaqların patronaj xidməti, yeni doğulmuşların vaxtında qeydiyyata alınması, uşaqların Elektron sağlamlıq kartları ilə təminatı və ondan istifadə qaydasının öyrədilməsi məqsədilə “Ailə sağlamlıq məktəbləri” yaradılmış, məşğələlərin davamlı aparılmasına nail olunmuşdur.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Tibb Kolleci Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin himayəsinə verilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində Səhiyyə Nazirliyi ilə bu təhsil müəssisələri arasında əlaqələr daha da genişlənmişdir. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. İstər tibb fakültəsinin, istərsə də tibb kollecinin məzunları bu gün muxtar respublikada ən mürəkkəb cərrahi əməliyyatların aparılmasında iştirak edirlər.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi Naxçıvanın blokada şəraitində olması nəzərə alınaraq tibbi kadrlara tələbatın ödənilməsi məqsədilə 1999-cu ildə yaradılmışdır. O dövrdə bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən müddətdə inkişaf edərək hazırda həm bakalavr, həm də rezidentura təhsili üzrə həkim hazırlığı həyata keçirir. Bu gün fakültənin müasir xəstəxanası tələbələrin nəzəri və praktik biliklərinin təkmilləşdirilməsində müstəsna rol oynayır. Tibb sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlamaq və dünya tibb elminə daha sıx inteqrasiya etmək üçün universitet xarici ölkə universitetləri ilə sıx əlaqələr qurmuşdur.

Naxçıvan Tibb Kollecində 8 ixtisas üzrə tibbi kadr hazırlanır. İxtisaslı kadrların hazırlanması və beynəlxalq elmi əlaqələrin genişləndirilməsi məqsədilə Naxçıvan Tibb Kollecinin müəllim və tələbə heyəti Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşdirmə kurslarına göndərilir. Yüksəkixtisaslı həkimlərin iştirakı ilə keçirilən beynəlxalq elmi-praktik konfranslar, təşkil edilən kurslar həkimlərin müasir tibbi biliklərinin zənginləşdirilməsində, hər il keçirilən səhiyyə yarmarkaları isə gənc tibbi kadrların işlə təminatında mühüm rol oynayır.

Hazırda muxtar respublikada əhaliyə 224 tibb müəssisəsi tərəfindən səhiyyə xidməti göstərilir. Həmin tibb müəssisələrində 695 həkim, 2 min 212 orta tibb işçisi çalışır. Artıq yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stent qoyulması, laparoskopik, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatları aparılır. Mürəkkəb cərrahi əməliyyatların da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını almışdır. Aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, ürək damarlarına stent qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə daim dezinfeksiya və dezinseksiya tədbirləri, larviolla delervasiya aparılır, müxtəlif yaş qruplarının dispanserizasiyası, hepatit B və C virus infeksiyalarının qarşısının alınması tədbirləri genişləndirilir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə mütəmadi olaraq Naxçıvan şəhərinin dəmir yolu və avtovağzallarında, topdan və pərakəndə satış məntəqələrində dezinfeksiya tədbirləri həyata keçirilir. Rayonlarda isə, əsas etibarilə, məktəblərin sinif otaqlarında, idman zallarında, qarderoblarında, bufet və yeməkxanalarında, dəhlizlərində, sanitar qovşaqlarında və digər yerlərdə dezinfeksiya və dezinseksiya işləri təşkil olunur. Həmçinin kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd-gömrük məntəqələrində profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər həyata keçirilir.

Dünyada elan olunmuş pandemiyanın muxtar respublika ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması üçün profilaktik və təxirəsalınmaz tədbirlər həyata keçirilir. Belə ki, bütün sahələrdə zəruri sosial davranış və sanitar-epidemioloji qaydalar tətbiq edilib, şəhər, qəsəbə və kəndləri əhatə etməklə hər bir yaşayış məntəqəsində, eləcə də ictimai yaşayış binalarında, idarə, müəssisə və təşkilatlarda dezinfeksiya işləri aparılıb. Bununla bağlı əhali arasında maarifləndirici tədbirlər ardıcıl şəkildə davam etməkdədir. Muxtar respublika ərazisində bütün tibb müəssisələri və peyvənd məntəqələrində idarə olunan yoluxucu xəstəliklərə qarşı profilaktik peyvəndlərin plan üzrə aparılmasına nəzarət edilir, monitorinqlər keçirilir.

Naxçıvanda səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Duzdağ Fizioterapiya Mərkəzinin, Darıdağ Arsenli Su Müalicəxanasının və Ağbulaq İstirahət Mərkəzinin imkanları hesabına təşkil olunan müalicə turizmi xidmətləri muxtar respublikanın ümumi turizm potensialının mühüm bir hissəsini təşkil edir. Duzdağ Fizioterapiya Mərkəzi hər il orta hesabla 4 min xəstə qəbul edir. Mərkəzdə ölkəmizin bir çox yerlərindən, o cümlədən Türkiyə, Gürcüstan, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Almaniya, Hollandiya, Avstriya və İngiltərə kimi xarici ölkələrdən gələn insanların yuxarı tənəffüs yolları xəstəlikləri müalicə olunur. Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin inşası da səhiyyə turizminin inkişafında yeni mərhələnin əsasını qoyacaqdır.

***Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Peşə bayramını yüksək nailiyyətlərlə qeyd edən tibb işçiləri bundan sonra da səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər.***

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Onlayn ixtisasartırma kursuna start verilib

*Naxçıvan Müəllimlər İnstitutunda ixtisasartırma və yenidənhazırlanma çərçivəsində valideynlər, defektoloq-loqoped, psixopedaqoq və məktəb psixoloqları üçün inklüziv təhsil istiqamətində “Pandemiya şəraitində sosial-psixoloji reabilitasiya: yaşam boyu inkişaf” adlı 5 günlük (12 saatlıq) ixtisasartırma kursuna start verilib.*



Kursun başlanğıc tədbirində Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirliklərinin, Bakı şəhərində yerləşən Psixologiya Elmi-Tədqiqat İnstitutunun əməkdaşları, loqopedlər, psixoloqlar, defektoloqlar və valideynlər onlayn formada iştirak ediblər.

İxtisasartırma kursunun açılış tədbirində giriş sözü ilə çıxış edən institutun rektoru Azad Novruzov qeyd edib ki, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası istiqamətində Naxçıvan Müəllimlər İnstitutunda ixtisasartırma və yenidənhazırlanma sahəsində mütəmadi olaraq kurslar təşkil olunur. Bildirilib ki, 5 gün davam edəcək xüsusi təhsil istiqamətində ixtisasartırma kursu bu istiqamətdə gələcək fəaliyyət proqramlarının daha səmərəli qurulması baxımından əhəmiyyətli olacaqdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək Dövlət proqramının icrasına uyğun olaraq ötən dövr ərzində sağlamlıq imkanları məhdud uşaqlara münbit təhsil mühitinin formalaşdırılması məqsədilə görülən işlərdən danışıb.

Həmçinin qeyd olunub ki, ixtisasartırma kursu muxtar respublikada müvafiq kateqoriyadan olan uşaqların tibbi müayinəsi üçün reabilitasiya sahəsində kadr hazırlığının artırılmasına, nazirlik və Naxçıvan Müəllimlər İnstitutu arasında qarşılıqlı fəaliyyətin güclənməsinə töhfə verəcək, bu sahədə yeni layihələrin icrasına əlverişli şərait yaradacaq, sağlamlıq imkanları məhdud uşaqların gələcək inkişafına mühüm dəstək olacaqdır.

Növbəti çıxışlardan sonra kurs öz işini təsdiq olunmuş qrafikə uyğun olaraq onlayn formada davam etdirib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

## Hüquqi Aktların Dövlət Reyestri yeni hüquqi aktlarla zənginləşir



*Müstəqillik əldə etdikdən sonra hüquqi dövlətin yaradılması sahəsində görülən tədbirlər çərçivəsində qanunvericilik bazası da tamamilə yeniləndi, yeni normativ-hüquqi aktlar qəbul edildi. Muxtar respublikada müasir dövrün tələblərinə uyğun olaraq Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantının yaradılmasına da ciddi ehtiyac yaranmışdı.*

Ədliyyə Nazirliyinin mühüm vəzifələrindən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 27 iyul tarixli Fərmanı ilə yaradılan Hüquqi Aktların Dövlət Reyestrinin aparılmasını təmin etməkdir. 2012-ci il yanvarın 1-dən başlayaraq muxtar respublikada reyestrin aparılması və idarə olunması nazirlik tərəfindən həyata keçirilir. Reyestrin yaradılmasında əsas məqsəd hüquqi aktlar barədə dövlət informasiya ehtiyatını yaratmaq, ictimaiyyətin, müxtəlif sahələrdə çalışan peşə sahiblərinin vaxt itkisinə yol vermədən informasiya əldə etmək imkanını asanlaşdırmaqdadır. Ayrı-ayrı hüquq sahələri ilə bağlı mütəmadi olaraq kütləvi informasiya vasitələrində hüquqi maarifləndirmə işləri aparmaqla yanaşı, reyestrin təşkili də bu fəaliyyətin sürətləndirilməsinə yönəldilən mühüm addımdır.

Hazırda hüquqi aktlar *huquqiaktlar.nakhchivan.az* internet saytında dərc olunur və ictimaiyyət üçün daim açıqdır. Səhifədə hüquqi aktların məzmunu ilə tanış olmaqla yanaşı, sənədlərin axtarışının həyata keçirilməsi də mümkündür ki, bu da istifadəçinin vaxt itkisinin qarşısını alır. Fəaliyyət göstərdiyi müddət ərzində reyestrə 2116 hüquqi sənəd daxil edilmişdir. Onlardan 1186-sı normativ, 924-ü isə qeyri-normativ hüquqi akt, 6-sı normativ xarakterli aktdır. Sayt milli qanunvericiliyin digər elektron bazalarına daxil olmaq imkanı da yaradır.

Muxtar respublikamızda aparılan mütərəqqi islahatlar geniş qanunyaradıcı fəaliyyət ilə müşayiət olunur. Reyestrin geniş qanunvericilik bazasını özündə əks etdirməsi və daim yenilənməsi internet istifadəçilərinin diqqətini cəlb edir. Zaman keçdikcə yeni hüquqi aktların reyestrə daxil edilməsinin nəticəsidir ki, elektron istifadəçilərin sayı ilbəil artır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Zəfər himninin Ağdərədə çalınacağı gün yaxındadır

***Yüz illərdir, qədim şəhər Ağdərə hər tərəfdən onu əhatə edən, ovcunun içində saxlayan dağların zirvəsinə başını söykəyib arxayıncasına uyuyurdu – ta ki həmin günə kimi. Artıq 3 il idi ki, gecəsi-gündüzü bir-birinə qarışmışdı Ağdərənin.***



Cənnətimiz Qarabağ qarış-qarış gedirdi əldən. Həm əzizlərimizi itirirdik, həm də yurdumuzu. Xocalı, Şuşa, Laçın kimi Ağdərənin də torpağından, daşından qan sızırdı. Neçə vaxtdan bəri idi ki, o da ağır sınaqla üzbəüz qalmışdı. Onun sinəsində ağır döyüşlər gedirdi. Vaxtilə yurdumuzdan sığınacaq, təknəmizdən çörək, ocağımızdan od verdiyimiz ermənilər insanlığa sığmayan hərəkətlərlə evləri, tarixi abidələri talan edirdilər. Artıq bu torpağa qədəm qoyanlar meşələrdən gələn bülbüllərin cəh-cəhinin yerinə güllə, top səsi eşidirdilər. Gurlayan atəş səsləri igid oğullarımızı qorxutmurdu. Onlar səngərdə Vətən torpağının keşiyini çəkirdilər. Yüzlərlə can qurban gedirdi Vətənin hər qarışının müdafiəsi üçün. Amma, təəssüf ki, içimizdəki xainlərin hakimiyyət davası ermənilərin işğal planına kömək edirdi. Mərkəzi hakimiyyətin laqeyd münasibəti, kreslo davası artıq iyunun əvvəlindən düşmənin arzusunu reallığa çevirməyə şərait yaratmışdı. Ağdərə uğrunda döyüşlərin getdiyi bir vaxtda Gəncə qiyamının alovlanması oradakı döyüşçüləri ruhdan sala bilməsə də, onlar son damla qanlarına qədər döyüşsələr də, 1993-cü il iyunun 17-də daha bir rayonumuzu itirdik.

İşğala qədər Ağdərənin 14 kəndində (Sırxavənd, Başirlər, Qaraşlar, Qaralar, Baş Güneypəyə, Orta Güney, Xatınbəyli, Manikli, Tellibinə, Narınclar, Çərəktar, İmarət-Qərvənd, Umudlu, Yeni Qaralar) və Gəncxana sovxoz qəsəbəsində yaşamış 14 mindən çox azərbaycanlı və işğal zamanı rayonun bütün əhalisi öz doğma yurdlarından məcburən köçkün düşərək Azərbaycanın müxtəlif bölgələrində məskunlaşıblar. Hazırda işğal altında olan keçmiş Ağdərə rayonunun 8 kəndi və onlara məxsus torpaq sahələri Ağdam rayonunun 23 kəndi və onlara məxsus torpaq sahələri Kəlbəcər rayonunun, Ağdərə şəhəri və 13 kəndi, onlara məxsus torpaq sahələri Tərtər rayonunun inzibati tərkibindədir. Ağdərənin rayontipli iki qəsəbəsi, 57 kəndi, 67 klubu, 51 kitabxanası, 30 orta məktəbi, 7 xəstəxanası, 1 texniki peşə məktəbi işğal altındadır.

Əsasən, dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarət olan Ağdərə faydalı qazıntılarla – polimetal yatağı, əhəngdaşı və gipslə zəngindir. Ağdərə Dağlıq Qarabağın mühüm kənd təsərrüfatı rayonlarından idi, iqtisadiyyatında üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq əsas yer tuturdu. Tərtər çayı dərəsi boyunca Azərbaycanın Yuxarı və Aşağı Qarabağını birləşdirən karvan və avtomobil yolları var idi. Ağdərənin qədim memarlıq abidələri və körpüləri, müqəddəs ziyarətgahı Ulduztəpə piri də düşmən tapdağındadır. Memarlıq abidələrindən Vəngli kəndindəki məşhur Gəncəsər alban məbədi, Kolatağ kəndində müqəddəs İako məbədi (635-ci il), Talış kəndi yaxınlığında Urek məbədi (XII əsr), Tərtər çayının yuxarı axarında məbəd (XIII əsr), Hatəm Məlik qalası Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və mənimsənilib. Erməni quldurları Ağdərə rayonunun sərvətlərinin talan edilməsi üçün beynəlxalq hüquqa zidd əməllər həyata keçirir. Tərtər çayı üzərində salınmış Sərsəng Su Anbarı ilə əlaqədar yaranmış vəziyyətə görə ciddi narahatlıq Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi qətnamədə qəsdən süni ekoloji böhranın yaradılması – “ekoloji təcavüz” kimi qiymətləndirilib.

Sərsəng Su Anbarının işğalı nəticəsində 100 min hektar sahədə kənd təsərrüfatı bitkilərinə suvarma suyunun verilməməsi respublikanın bu regionuna xeyli zərər vurmuşdur. Su anbarına və onun qurğularına texniki xidmət göstərilmədiyi üçün o, qəza vəziyyətindədir. Bu səbəbdən Sərsəng Su Anbarının işğal olunmuş ərazilərdə qalması onun aşağı byefində yerləşən 400 min nəfər əhali üçün ciddi təhlükə yaradır.

Tarixin bir çox dövrlərində bərəkətli, yeraltı və yerüstü sərvətləri ilə zəngin olan torpaqlarımız düşmənlərin hücumlarına məruz qalıb. Mərd, vətənpərvər övladlarımız bu torpaqlara uzanan xain əlləri kəsib. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə də sərhədlərimizə hücum edən düşmənin nəfəsi kəsildi. Azərbaycan əsgərinin şücaəti tarixin səhifələrinə qızıl hərflərlə həkk edildi. Azərbaycan Ordusunun, xalqımızın qələbəsi ilə nəticələnən döyüşlərdə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Madagiz və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi.

Uzun illər öncə qeyri-bərabər döyüşlərdə işğal edilən torpaqlarımızın bir hissəsini geri qaytara bildik. Bu qələbə gələcək zəfərimizin də müjdəsi oldu. 2018-ci ilin may ayında Azərbaycan Ordusunun daha bir möhtəşəm qələbəsi – Günnüt zəfəri torpaqlarımızın bütövlüyü uğrunda gedən haqq savaşımızda qazandığımız uğur oldu.

*Dövlətimizin artan gücü və hərbi qüdrəti, bir də Azərbaycan Prezidenti cənab İlham Əliyevin qətiyyətli mövqeyi xalqımızda inam yaradır ki, tezliklə əzəli və əbədi torpaqlarımız, eləcə də Ağdərə işğaldan azad olunacaq. Dövlət başçısının: **“Qarabağ Azərbaycanındır, nida!”, “Biz öz ərazi bütövlüyümüzü istənilən yolla azad edəcəyik!”** kimi qətiyyətli bəyanatları da bu inamdan xəbər verir.*

**Ramiyyə ƏKBƏROVA**

## Naxçıvan şəhərində genişmiqyaslı dezinfeksiya tədbirləri həyata keçirilib



***Muxtar respublikada pandemiyaya qarşı qabaqlayıcı profilaktik tədbirlərə cəlb edilən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti tərəfindən Naxçıvan şəhərinin əsas küçə və prospektlərində, ümumilikdə, 230 kilometr və ya 4 mln 600 min kvadratmetr yol və səkilər 5 ədəd yanğınsöndürmə avtomobili vasitəsilə dezinfeksiya edilib.***

Dövlət Baytarlıq Xidmətinin 2 ədəd dezinfeksiya avtomobili cəlb olunmaqla Kardiologiya Mərkəzi, Təcili Tibb Mərkəzi, Akademik Zərifə Əliyeva adına Poliklinika, Respublika Xəstəxanası, Mərkəzi Uşaq Xəstəxanası, Doğum Mərkəzi, “Gənclik” Ticarət Mərkəzi, Avtovağzal, “Limon market”, 2 mərasim evi, 4 məscid, Televiziya və Radio Verilişləri Komitəsinin ətrafı, Heydər Əliyev Sarayı, “Təbriz” mehmanxanası, Aviakassa, Müəllimlər İnstitutunun, İqtisadiyyat Nazirliyinin, Musiqi Kollecinin və “Evim” Ticarət Mərkəzinin qarşısı, “Cahan” Ticarət Mərkəzinin meyvə bazarı, həmçinin 74 ictimai yaşayış binasının ətrafı və səkilər dezinfeksiya olunub.

Dezinfeksiya qrupları tərəfindən yol kənarlarındakı ictimai iaşə obyektlərinin ətrafı, Sahil Parkı, Əyləncə adası, Vergilər Xidmətinin yanındakı park, 150 ictimai yaşayış binasının ətrafı, “Çənlibel” məhəlləsindəki, “Elit-57” binalarının ətrafındakı, mikrorayonlardakı uşaq əyləncə yerləri, Heydər Əliyev İstirahət Parkı, Bəhruz Kəngərli Muzeyi və Rəssamlar parkı, Azərtürk bank, Naxçıvanbank, Mərkəzi bank, Kapital bank, Qızlar bulağı, Əcəmi seyrəngahı, Saat Qülləsi, hərbi liseyin qarşısındakı park, yaşıl aptek, binaların birinci mərtəbəsində olan əczaxanaların və mağazaların qarşısı məşın bazarı, 2 yeraltı dayanacaq, 2 yerüstü və 1 yeraltı keçid, 4 marketin ətrafı, Uzunoba çimərliyi dezinfeksiya olunub.

Dezinfeksiya işlərində Fövqəladə Hallar Nazirliyinin, ümumilikdə, 45 nəfər şəxsi heyəti cəlb edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonu, Düdəngə kənd sakini İsmayılov Mahmud Əyyub oğlunun adına olan JN-413 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Xudiyev Qabil Qasım oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

İsmayılov Rövşən Arif oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Hüseynov Qabil Məmməd oğlunun adına olan VÖEN-0900063392 itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 447